# APAR MƏNİ DƏNİZƏ, yaxud on birdən sonra

*(Hekayə)*

Göylərin sultanı günəş Günəşli qəsəbəsindəki yeni ucaldılmış göydələnlərə dirsəklənərək öz zərrin şəfəqlərini düz-dünyaya səpələməkdəydi. Mən isə bekarçılıqdan şəxsi arxivimi qurdalayırdım. Əslində, çoxdan yazdığım, sonralar it-bata saldığım hekayəmi axtarırdım. Bu beyndə televizorumuzun ekranından qulağıma şipşirin, məlahətli bir səs doldu. Sənətinin vurğunu olduğum gənc xanəndə "Şuşanın dağları" mahnısını oxuyurdu. Özümdən asılı olmayaraq, bir də gördüm, mavi ekranın qarşısındakı divanda oturmuşam. Mahnı bitməmiş alaşıq-dolaşıq bir reklam çarxı fırlatdılar. Tezcə kanalı dəyişdim. "Bulaq" TV-də - "ən baxımlı" kanalda "On birdən sonra" şousu gedirdi. Tanınmış aparıcı Turxan Atəşli adəti üzrə səsini başına atmışdı. Otbiçən aqreqat kimi ağzına "keçəni" doğrayıb-tökürdü.

-Mənim, - deyirdi, - əziz, mehriban, qədirbilən, sədaqətli, hörmətli izləyicilərim, hamıvızın sabahları xeyirliyə açılsın. Bu günnəri söhbətimiz əsl sənətdən, sənətkarlıqdan, mükəmməl ifaçılıqdan gedəcey. Soruşun, nöşün? Ona görə ki, mən bu günnəri studiyamıza hamıvızın xoşladığıvız, dəyər verdiyiniz gənc, parlaq gələcəyləri olan müğənniləri çağırmışam. Bu günəş üzlü, ay camallı, mələy misallı, ahu gözlü, ceyran baxışlı gözəlləri mən, inanız, tərif eləməyə söz tapmaqda çətinlik çəkirəm. Cazibədar olduqları qədər sənətlərində də əvəzolunmazdılar. Allah-taala hər şeyi bu qızlara səxavətnən, bolabol verib. Hələ oların bir başqa üstünlüyləri də var. Heç kimnən işləri, xoşagəlməz söz-söhbətləri yoxdu. Qalmaqaldan uzaqdılar. Aparıcı nazik, uzun boğazını artlayıb səsinin cilovunu bir qədər də boşaltdı: - Mən icazəniznən vaxt itirmədən ilk öncə studiyamıza ifaçılıq manerası, dəst-xəttiynən seçilən və çox sevilən müğənni Yazgül Yadigarlını dəvət eləyirəm. Buyursun, xoş gəlib-səfa gətirib.

Səmərqənd kağızıtək ağappaq, qaynar gözlü, sivri qaşlı, alma yanaqlı, ətli-əndamlı, boylu-buxunlu, gömgödək sarı don geymiş bir cuvanəzən ley sərçənin üstünə şığıyan təki cumdu aparıcının üstünə. Gen, şümşad, yarıaçıq sinəsindəki yupyumru, ucları şiş qayaları xatırladan möhtəşəm məmələrini dayadı onun taxta sinəsinə. Fağırı nə tövr sıxdısa, sümükləri şaqqıldadı. Sonra çılpaq, bəyaz qollarını doladı qarşısındakının uzun, arıq boynuna. Turxan xanımın əllərindən qurtulcaq gülümsəyib dedi: - Ancaq gözlə ha, Yazoş, saroçkama ləkə salarsan, təzə almışam. Məni evə qoymazdar.

"Yazoş" xanım da söz altda qalmadı: - Neynim, özümdən asılıdı bəyəm. Sən o qədər mehriban, səmimi, istiqanlı, istəklisən ki... Turxan, əzizim, sən məni uje ikinci dəfədi verilişinə dəvət eləyirsən. Diqqətinə görə şəxsən sənə şirkətinizin rəhbərliyinə sonsuz minnətdarlığımı bildirirəm. Uca Yaradan sizləri biz sənət adamlarına çox görməsin.

- Yaxçı, keç bəgəndiyin yerdə əyləş. Növbəti qonağım sizcə kim olacey?

Aparıcı cavab gözləmədən fikrini tamamladı: - Əntiqə xanım! Əntiqə Mirbəşir! Hüsnücamalı, ağlı-kamalı, yerişi, duruşu, sallanışı da əntiqədi, sənəti də, səsi də. Nə başınızı ağrıdım, indi görəcəksiz. Buyurun, gəlsin milyonların səbirsizliknən gözlədiyi Əntiqə xanım.

Studiyada qolları, sinəsi, kürəyi, qılçaları ön tərəfdən dizlərindən yuxarıyacan açıq olan totuqmotuq, yumrusifət, fındıqburun, bulud zülflü, ay qabaqlı, gülgəz yanaqlı bir qız peyda oldu. O, əvvəlki müğənnidən fərqli olaraq Turxan bəyi öpmədi; sol əlini sinəsinə qoyub onun qarşısında baş əydi. Aparıcı onun ağmaya əllərindən tutub ərklə: -Sən mənim canım, - dedi, - bir-iki kruq fırlan, sənə yaxçı-yaxçı baxım. Çoxdandı görmürəm səni. Darıxmışdım sənnən ötəri.

Müğənni xanım aparıcının təklifini əzilə-büzülə yerinə yetirdi.

-Pəh-pəh, maşallah, lap gün kimi alışıb-yanırsan, ay qız. Göz dəgməsin. Amma deyəsən xeylax kökəlmisən. 5-6 kilo ata bilsən, əladan əla görünərsən.

-Yaxsı da, ay Turxan bəy, utandırma məni, qoy tamaşaçılarımnan xoş-beş eləyim, hal-əhval tutum...

Növbəti dəfə aparıcı kallaşmış səsini sahmana salmaqdan yana 2-3 ağız yüngülcə öskürdü, ətrafındakılardan üzr istəyib sözünün ilməsinin qaçmasına imkan vermədi.

- İndisə, dostlar, çoxdan kanallarda görsənməyən, konsert salonlarında çıxış eləməyən, fəqət heç vaxt unudulmayan Turanə xanım gəlir! Turanə Mərdanqızı ilk öncə, neçə il qabaq ona populyarlıq qazandıran, sözlərini də, musiqisini də özünün yazdığı "Mən hamişə səninləyəm" mahnısını oxuyacey. Xoş gəlib-səfalar gətirib. Gəlin ürəkdən alqışlayaraq onu - ulduz müğənnimizi. Sol əlində tutduğu mikrofonu çəhrayı dodaqlarına dayayan nazlı-qəmzəligörünüşü məzəli, düz qamətli bir xanım asta addımlarla, pəsdən oxuya-oxuya meydana varid oldu. Hamının nəzər-diqqəti dərhal qızın alışıb-yanan, ulduztək sayrışan, göz qamaşdıran, ağıl çaşdıran vücuduna dikildi. Zalım balasının şümşəd bədəninin "strateji" nöqtələri istisna olmaqla, çox yeri çılın-çılpaq vəziyyətdəydi. Dahi şairimiz M.P.Vaqif onu bu görkəmdə görsəydi, yəqin ki, indiyəcən yazdığı şeirlərinə bu misraları da əlavə edərdi:

*Sən gəldin, nur doldu evə, otağa,*
*Gəldiyin yollara olum sadağa.*
*Durub qurban olmaq səntək qonağa*
*Nuşdur canımıza, ay qəşəng pəri!*

Öz gözüynən görməyən inanmaz. Müğənni xanımın enli sinəsinin hələ qələm toxunmamış ağ qalın kağıza, kürəyinin isə qabığı təzəcə soyulmuş ılıq yumurtaya bənzəri vardı. Bunlar öz yerində. Onun şişman, boyalı dodaqlarının hiss olunmayacaq dərəcədə tərpənişindən bilinirdi ki, səs ondan deyil, hardasa başqa yerdən gəlir. Yəni indiki "dildə" desək, fonoqrammadır. Eynilə monotonlu bir meyxana stilində quraşdırılan həmin mahnının sözlərinin isə şeirə, şeiriyyətə əsla dəxli yox idi.

*Kaş yanında olaydım,*
*Əllərindən tutaydım.*
*Sarılaydım boynuna,*
*Dərdimi oda ataydım...*

Sonra o biri "ulduzlar" da növbəylə öz məharətlərini, nəyə qadir olduqlarını bitdə-bitdə çözələyib qoydular ortalığa. İndi mən deyim, yetirim qara qulluğunuza, eşitməyənlər, görməyənlər də "feyzyab" olsunlar o kəlamlardan, sözlərdən:

*O, mənim nəfəsimdi,*
*İçdən gələn səsimdi.*
*Hər nə etsə, bəsimdi.*
*İkimiz bir şəhərdə,*
*İki can bir bədəndə...*

Yaxud:

*Biz gəldik üz-üzə,*
*Dayandıq göz-gözə.*
*Apar məni dənizə*
*Hamı baxsın qoy bizə...*

Nə başınızı ağrıdım. Beyinləri cırmaqlayan xaric səslər, mayıf ifalar bir-birini əvəzlədikcə kortəbii alqışlar, boğazdan yuxarı təriflər, atmacalar baş alıb gedirdi.

Davamında Turxan Atəşli üzünü gənc müğənnilərə tutaraq onlara sonsuz təşəkkürünü təkrar-təkrar dilə gətirdi: - Qızlar, çox sağ olun. Bu günləri siz öz möhtəşəm çıxışlarınızla izləyicilərə xüsusi zövq aşıladınız. Beş-altı kəlmə də sənətivizin dəyəri barəsində danışım: - Sizin rəngarəng ifalarınızı dinlədikcə adam başı dumağ çalmalı bağlarına, dişgöynədən bulaqlarına, keçilməz meşələrinə yenidən vurulur. Mahnılarıvızın sadə, aydın, qısa, lakin dərin mənalı sözləri hisslərimizi coşdurdu, əhval-ruhiyyəmizi durultdu. Allah səsivizə qüvvət versin. Heç vaxt...

Aparıcı fikrini yekunlaşdırmaq istəyirdi ki, heç kəsin gözləmədiyi bir olay baş verdi. İkinci cərgədə oturmuş tamaşıçılardan orta yaşlı bir kişi ayağa qalxıb ucadan:

-Turxan bəy, - dedi, - inciməyin. Bayaqdan oturub şounuza baxırıq. Çağırdığınız müğənnilərin oxumalarını diqqətlə izləyirik. Mən öz payıma deyirəm. Onların heç biri xoşuma gəlmədi. Belələrini tərifləməklə camaatı təhqir edirsiniz. Qonaqlarınızın zəif, sönük, xaric ifaları, mahnıların isə şit, bayağı, gülüş doğuran sözləri zövqləri oxşamağı bir yana, əksinə, əsəbləri tarıma çəkdi. Biri deyir, mənim mahnılarım trenjə düşüb, biri deyir mənim filan mahnım 850 izləyici toplayib, o biri deyir, mən hər dəvət olunan yerə getmirəm. Kim inanar bunlara? Hər şey göz qabağında deyil? Siz və sizin təki öz ana dilində düzəməlli danışa bilməyən aparıcılar deyilmi milləti teleməkanlardan uzaqlaşdıran.

Gurultulu alqış studiyanı titrətdi. Hayıf ki, bu heyndə işığımız söndü. Tay bilmədim işin axırı necə oldu.



***Qorxmaz ABDULLA,***
***AYB-nin üzvü,***
***10.02.2022***